**Respublika.**-2024.-18 iyul.-№149.-S.5.

# İqlim dəyişmələri ilə mübarizədə Azərbaycan nümunəsi

**Nəzrin Eldarqızı**

**Azərbaycan regionun aparıcı dövlətlərindən olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi də böyük nüfuza malikdir. Bu səbəbdən, rəsmi Bakı Cənubi Qafqazın iqtisadi, siyasi və humanitar mərkəzi hesab olunur. Bütün bunların özəyində isə uğurla həyata keçirilən daxili və xarici siyasi kurs dayanır. Dövlətimiz öz resurslarından səmərəli istifadə etməklə qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələrini formalaşdırır, beynəlxalq təşkilatlarda, eləcə də ayrı-ayrı platformalarda mövqeyini gücləndirir. Bu faktlar isə respublikamızın mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsinin təsadüfi xarakter daşımadığını bir daha təsdiq edir. Azərbaycan hazırda təşəbbüsləri ilə dünyada sülhün, təhlükəsizliyin möhkəmləndirilməsi, ümumbəşəri dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi, ayrı-ayrı istiqamətlərdə müşahidə olunan problemlərin həllində təqdirəlayiq addımlar atır. Bakının müxtəlif dövrlərdə qlobal və regional səviyyəli tədbirlərə ev sahibliyi etməsi ölkəmizi bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu bir məkana çevirib.**

İndiyədək Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumu, Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatı, İslam Həmrəyliyi və Avropa Oyunları kimi bir sıra nüfuzlu tədbirlər keçirilib. Bu il Azərbaycan daha bir beynəlxalq əhəmiyyətli tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Qeyd edək ki, COP tədbirləri siyasi etimadı yüksək, daxilində ciddi təhlükəsizlik, sülh və sabitliyin hökm sürdüyü ölkələrdə keçirilə bilər. Bu cür mötəbər tədbirin Azərbaycanda keçirilməsi barədə qərara gəlinibsə, deməli, dövlətimiz bu kriteriyalara cavab verir. COP29-a ev sahibliyinin bu il Azərbaycana ötürülməsi, eyni zamanda son zamanlar dövlətimizə qarşı qarayaxma kampaniyası ilə gündəmə gələn bəzi dairələrə tutarlı cavabdır. Bu, həmçinin rəsmi Bakının müsbət imicinin üzərinə heç kimin kölgə sala bilməyəcəyinin əyani sübutudur.

COP29-un Azərbaycanda keçirilməsi heç də təsadüfi deyil. Çünki Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə aktiv iştirak edir və bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malikdir. Belə ki, dövlətimizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavat təşkil edir ki, hazırda bu göstəricilərin artırılması istiqamətində bir sıra işlər görülür. Rəsmi Bakı 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını proqnozlaşdırıb. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən olunub ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir. Bununla yanaşı, İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbədən sonra işğaldan azad edilmiş Şərqi Zəngəzur və Qarabağ torpaqları da "yaşıl enerji" zonası elan olunub. Həmin ərazilərin 2050-ci ilədək "netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub. "Yaşıl dünya naminə həmrəylik ili" haqqında Prezident Sərəncamında da Azərbaycanın bu il ərzində "yaşıl enerji" sahəsində çoxsaylı tədbirlər həyata keçirəcəyi öz təsdiqini tapıb. Azərbaycanın həm regionda, həm də qlobal arenadakı nüfuzuna, beynəlxalq aləmdə görülən işlərə nəzər yetirsək, bu real görünür. Dünyanın müxtəlif dövlətlərindən olan liderlərin, eləcə də bu sahə üzrə mütəxəssislərin ölkəmizdə bir araya gəlməsi yeni təşəbbüslərin, istiqamətlərin müəyyənləşməsinə də əlverişli şərait yaradacaq. BMT-nin ən böyük miqyaslı tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi respublikamızın beynəlxalq aləmdəki nüfuzunun daha da artmasına müsbət təsir göstərəcək. Dövlətimiz bu cür mötəbər tədbirə ev sahibliyi etməklə nəinki bütün sahələrdəki inkişafını dünya ictimaiyyətinə göstərəcək, beynəlxalq aləm bir daha qlobal problemlərin həllinə Azərbaycan yanaşmasının uğurlu nəticələrinin şahidi olacaq.

Məlumat üçün qeyd edək ki, ilk dəfə 1995-ci ildə Almaniyanın Berlin şəhərində keçirilən bu konfransa (COP) rəhbərlik və ev sahibliyi BMT-nin 5 regional qrupunu (Afrika ölkələri, Asiya ölkələri, Latın Amerikası və Karib ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri, Qərbi Avropa və digər ölkələr) təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir. Hər regional qrup üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. Bundan öncəki tədbir - COP28 isə 2023-cü ilin 30 noyabr - 12 dekabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilib. Tədbirə dünyanın 195 ölkəsindən təxminən 97 min nəfərdən çox nümayəndə heyəti qatılıb.